İPƏK YOLU, No.2, 2025, səh.12-17
https://doi.org/10.30546/SI.2025.2.5.209

# ƏHALİ MƏSKUNLAŞMASININ ƏRZAQ MƏHSULLARININ İSTEHSAL-İSTEHLAK STRUKTURUNA TƏSİRİNİN TƏHLİLİ

**S.O. Babayeva, F.V. Süleymanov**

Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azərbaycan
e-mail: samaya.babayeva@adau.edu.az

**Xülasə.** Əhali məskunlaşmasının ərzaq məhsullarının istehsal və istehlak strukturuna təsiri kompleks və çoxşaxəli məsələdir. Bu təsir bir çox amillərə bağlıdır. Məqalədə əhali sıxlığının ərzaq məhsullarının istehlakına təsiri məsələləri, həmçinin hər nəfərə düşən kənd təsərrüfatı məhsulların istehsalının mövcud vəziyyəti tədqiq edilmişdir.

**Açar sözlər:** Ərzaq məhsulları, əhali məskunlaşması, istehlak strukturu, istehsal səviyyəsi.

**ANALYSIS OF THE IMPACT OF POPULATION SETTLEMENT ON THE PRODUCTION-CONSUMPTION STRUCTURE OF FOOD PRODUCTS**

**S.O. Babayeva, F.V. Suleymanov**
*Azerbaijan State Agrarian University, Ganja, Azerbaijan*

**Abstract.** The impact of population density on the structure of food production and consumption is a complex and multifaceted problem. This impact depends on many factors. The article examines the impact of population density on food consumption, as well as the current state of agricultural production per capita.
**Keywords:** Food products, population settlement, consumption structure, production level.

**АНАЛИЗ ВЛИЯНИЯ РАССЕЛЕНИЯ НАСЕЛЕНИЯ НА СТРУКТУРУ ПРОИЗВОДСТВА-ПОТРЕБЛЕНИЯ ПРОДОВОЛЬСТВЕННЫХ ТОВАРОВ**

**С.О. Бабаева, Ф.В. Сулейманов**
*Азербайджанский Государственный Аграрный Университет, Гянджа, Азербайджан*

**Резюме.** Влияние расселения населения на структуру производства и потребления продовольствия является сложной и многогранной проблемой. Это влияние зависит от многих факторов. В статье рассматривается влияние плотности населения на потребление продовольствия, а также современное состояние производства сельскохозяйственной продукции на душу населения.
**Ключевые слова:** Продовольственные товары, расселение населения, структура потребления, уровень производства.

## 1. Giriş

İqtisadi təhlillər göstərir ki, ölkə əhalisinin istehlak strukturuna çoxsaylı amillər təsir edir. Belə amillərdən, ölkə əhalisinin regional yerləşməsi ilk sırada dayanır. Əhalinin istehlak strukturuna məskunlaşma amilinin təsiri ilk öncə burada əhalinin cəmlənməsi prinsipi ilə xarakterizə edilə bilər. Belə ki, əhali sayı çox olan şəhərlər ilə əhalinin sayı nisbətən az olan regionlar arasında istehlakın xüsusi çəkisində əsaslı fərqlər mövcud olur [7, s.167]. Yüksək məskunlaşma olan regionlarda istehlak olunan əmtələrin kəmiyyətinin yüksək olması, əslində həmin şəhərlərin digər regionlardan istehlak strukturuna görə fərqlənməsinə səbəb olur. İstehlak həcmi yüksək olan şəhərləri digərlərindən fərqləndirən cəhətlərdən bir neçəsini aşağıdakı kimi müəyyənləşdirmək olar:

✓ Burada yaşayan əhalinin orta gəlirlik səviyyəsi digər şəhər və regionlarla müqayisədə yüksək olur;

✓ Həmin ərazidə iqtisadi məşğulluq yüksək olur və ya əsas iş yerləri həmin regionda cəmləşmişdir;

✓ Əhalinin sayı nisbətən yüksək olan şəhərlərdə, istehlak edilən əmtəələrin strukturunda əsaslı fərqlər mövcud olur (çeşidlilik baxımından) [5, s.25];

✓ Nisbətən yüksək məskunlaşma olan regionlarda, adətən, təklif edilən məhsullar qiymət baxımından müxtəlif təbəqələrin tələblərinə uyğun təşkil edilir;

✓ İstehlakın yüksək olduğu regionlarda keyfiyyət göstəriciləri digər regionlarda təklif edilən məhsullarla müqayisədə üstün olur;

✓ Belə şəhərlərdə istehsal müəssisələrinin fəaliyyəti, adətən, şəhərə yaxın ərazilərdə təşkil edilir ki, bu da istehsal xərclərinin, o cümlədən daşınma məsrəflərinin azaldılmasına yönəlik addım hesab edilir.

## 2. Əhali sıxlığının ərzaq məhsullarının istehlakına təsir səviyyəsi

Görülən odur ki, iri şəhərlərdə istehlakın həcminin artmasına təsir edən başlıca məqam burada əhalinin sayının çox olması olsa da, digəri məhz iqtisadi məşğulluqdan irəli gəlir. Belə ki, yüksək iqtisadi məşğulluq həmin şəhərlərdə əhalinin say tərkibinə təsir edən başlıca məqam hesab edilir [6, s.32]. Say çoxluğu təşkil edilən şəhərlərdə istehlak olunan məhsul və xidmətlərin kəmiyyəti digərləri ilə müqayisədə kəskin fərqlənir. İqtisadi məşğulluğun artırılması əslində istehlak edilən məhsullar üzrə artan tələblə qarşılıqlı şəkildə düz mütənasiblik təşkil edir.

İqtisadi rayonlar üzrə əhali sayının istehlaka necə təsir etdiyini daha aydın görmək məqsədilə Cədvəl 1-də iqtisadi rayonlar üzrə əsas iqtisadi göstəricilərə yer verilmişdir. Burada rayonlar üzrə baxıldığında müxtəlif rəqəmləri görmək mümkündür. Əvvəla, ölkə əhalisinin təqribən 2.3 mln nəfəri (23.02 %-i) məhz Bakı şəhərində məskunlaşmışdır. Əlbəttə, bu göstərici rəsmi qeydiyyatda olan insanların sayını ifadə edir. Qeyri-rəsmi məskunlaşan və ya işləmək məqsədilə daxili miqrasiya edən muzdlu işçilərindən sayını nəzərə alsaq, hazırda sözügedən şəhərdə 3.6 mln nəfərin olması bilinməkdədir. Ölkə üzrə ümumi əmək qabiliyyətli yaşda olan iqtisadi fəal əhalinin 1.7 mln nəfər olduğunu və bunun da təqribən 0.9 mln nəfərinin Bakı şəhərində olması cədvəldən görmək olar. Digər bir əsas göstəricidən məlum olur ki, ölkə üzrə orta əmək haqlarının həcmi 840 manat olduğu halda, paytaxt Bakıda bu rəqəm 1080 manat təşkil edir ki, bu da ölkə üzrə orta göstəricidən 28.5% daha yüksəkdir. Ölkə üzrə istehsal edilən sənaye məhsulunun təqribən 87.2%-i kənd təsərrüfatı məhsullarının isə 12.9%-i Bakı şəhərində istehsal edilir [2].

**Cədvəl 1.** İqtisadi rayonların əsas sosial iqtisadi göstəriciləri (2022-ci il üzrə)

| | *Əhalinin sayı, nəfər* | *Muzdlu işçilərin sayı* | *Orta ayalıq əmək haqqı* | *Sənaye məhsulu* | *Kənd təsərrüfatı məhsulu* |
|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası | 10127.1 | 1738.7 | 840.0 | 86383438.6 | 10984231.7 |
| Bakı şəhəri | 2336.6 | 899.9 | 1080.6 | 75384524.0 | 142237.0 |
| Naxçıvan Muxtar Respublikası | 465.7 | 110.3 | 610.8 | 1048584.9 | 589347.7 |
| Abşeron-Xızı iqtisadi rayonu | 874.1 | 100.5 | 689.2 | 4762166.3 | 343161.1 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 317.8 | 28.2 | 556.2 | 91215.1 | 455680.7 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 596.0 | 80.3 | 611.0 | 933246.1 | 375952.9 |
| Qarabağ iqtisadi rayonu | 736.4 | 65.7 | 536.6 | 193829.0 | 1113120.3 |
| Qazax-Tovuz iqtisadi rayonu | 674.4 | 60.1 | 577.4 | 484442.9 | 1426819.6 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 543.8 | 55.5 | 577.7 | 346209.5 | 1119675.2 |
| Lənkəran-Astara iqtisadi rayonu | 930.6 | 67.9 | 543.8 | 360977.4 | 999720.1 |
| Mərkəzi Aran iqtisadi rayonu | 716.2 | 75.6 | 525.2 | 631380.9 | 1095942.9 |
| Mil-Muğan iqtisadi rayonu | 520.2 | 44.2 | 524.2 | 709314.8 | 982916.3 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 623.6 | 73.5 | 514.6 | 455004.1 | 800498.4 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 300.4 | 21.6 | 583.0 | 7134.8 | 121208.4 |
| Şirvan-Salyan iqtisadi rayonu | 491.3 | 55.4 | 625.0 | 975408.8 | 722201.7 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanılmışdır

Cədvəldəki məlumatlara baxıldığında ilkin təəsürat bizə onu deməyə əsas verir ki, Bakı şəhərində əhalinin cəmlənməsi burada muzdlu işçi qüvvəsinin əksər hissəsinin toplanmasına, orta əmək haqları səviyyəsinin yüksək olmasına, sənaye məhsullarının əsaslı hissəsinin istehsal edilməsinə təsir etmişdir. Ancaq kənd təsərrüfatı məhsulları istehsalına gəldikdə isə regionun iqlim və torpaq ehtiyatları ilə qeyri-zəif təmin olunması, istehsalın az olmasına səbəb olan amil hesab edilir. Rəsmi statistik məlumatlara diqqət etsək, ümumi kənd təsərrüfatı məhsullarının təqribən 46.1%-in məhz Bakı şəhərində yaşayan əhali tərəfindən istehlak edildiyini görmək olar ki, bu da şəhər əhalisinin sayının digər regionlarla müqayisədə yüksək olmasından irəli gəlir. Əhali sayı nisbətən yüksək olan Abşeron-Xızı, Qarabağ, Lənkəran-Astara, Qazax-Tovuz iqtisadi rayonlarında da analoji halın təkrarlandığını görmək olar. Həmin iqtisadi rayonlarda da əhalinin sayı nisbətən yüksək, orta əmək haqlarının səviyyəsi digər rayonlara nisbətən müəyyən dərəcədə çoxdur. Bakı şəhərindən fərqli olaraq bu rayonlarda iqlim və torpaq ehtiyatları imkan verir ki, burada kənd təsərrüfatı məhsulları istehsalı artım göstərsin. Ancaq sənaye məhsullarına

diqqət edərkən bu rayonlarda Bakı şəhəri ilə müqayisədə sənayenin xüsusi çəkisinin az olduğunu görmək olar [1, s.314]. Bunu ixtisaslaşma səviyyəsinin Bakı şəhərində daha çox olması ilə əlaqələndirmək olar. Bakı şəhərində əhalinin mütləq əksəriyyətinin cəmlənməsinə təsir edən başlıca məqam, məhz sənaye sahəsi üzrə şəhərin yüksək inkişafıdır ki, bu da həm işçi qüvvəsinin sayında, həm də orta əmək haqlarının yüksək olmasında özünü biruzə verir. Cədvəl məlumatlarının təhlili bizə göstərir ki, əslində iri şəhərlərdə ərzaq məhsulları istehlakının yüksək olmasına təsir edən başlıca məqam iş imkanlarının geniş olmasından irəli gəlir. İş imkanları geniş olan fərdlər burada aldıqları əmək haqları müqabilində daha çox əmtəə və xidmətlər istehlak edirlər [4, s.9]. Digər tərəfdən, iş imkanları çox olan şəhərlərdə yüksək əmək haqları mövcuddur ki, bu da əhalinin alıcılıq qabiliyyətinə müsbət təsir edən amillərdəndir. Yüksək əmək haqqının Bakı şəhərində olması, burada istehlakın xüsusi çəkisinin artıq olmasına səbəb olmuşdur.

### 3. Hər nəfərə düşən kənd təsərrüfatı məhsulları istehsalının mövcud vəziyyəti

Ölkə üzrə regional məskunlaşmanın istehlaka təsirini araşdırarkən, burada əhalinin hər nəfərinə görə istehsal olunan məhsulunun kəmiyyətində son illər hansı istiqamətdə dəyişiklik olmasını aydınlaşdırmaq vacibdir.

**Cədvəl 2.** Hər nəfərə düşən kənd təsərrüfatı məhsullarının istehsalı, kq ilə

| İllər | Heyvandarlıq sahəsi üzrə | | | | |
|---|---|---|---|---|---|
| | **Ət (kəsilmiş çəkidə)** | **Süd** | **Yumurta, ədəd** | **Balıq** | **Taxıl (təmiz çəkidə)** |
| **2010** | 27 | 172 | 132 | 5.1 | 218 |
| **2015** | 31 | 202 | 163 | 5.4 | 307 |
| **2019** | 34 | 217 | 184 | 6.4 | 348 |
| **2020** | 35 | 220 | 191 | 6.1 | 318 |
| **2021** | 36 | 222 | 184 | 5.9 | 327 |
| **2022** | 36 | 224 | 200 | 5.9 | 305 |
| İllər | **Bitkiçilik sahəsi üzrə** | | | | |
| | **Kartof** | **Tərəvəz** | **Bostan bitkiləri** | **Meyvə və giləmeyvə** | **Şəkər çuğunduru** |
| **2010** | 107 | 133 | 49 | 82 | 28 |
| **2015** | 88 | 134 | 51 | 93 | 19 |
| **2019** | 101 | 173 | 45 | 111 | 22 |
| **2020** | 104 | 174 | 45 | 114 | 23 |
| **2021** | 106 | 181 | 46 | 120 | 18 |
| **2022** | 106 | 181 | 46 | 124 | 21 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatlarına istinadən hazırlanılmışdır

Cədvəl 2-in məlumatlarını təhlil edərkən aydın olur ki, baza ili ilə müqayisədə, ət istehsalının hər nəfərə düşən həcmi 2022-ci ildə 33.3%, süd istehsalının xüsusi çəkisi 30.2%, yumurta istehsalında say nisbəti 51.5% artmışdır [2]. Ət istehsalında baş verən dəyişikliklər göstərir ki, son on üç ildə ət istehsalının hər nəfərə düşən kəmiyyəti əsaslı şəkildə yüksəlmişdir. Bu məqama təsir edən başlıca faktor, dövlətin bu sahədə təşviqedici siyasəti olsa da, digər məqam ət və ət məhsullarının artan qiymətlər səviyyəsində istehsalçıların daha çox istehsal

etmək niyyətindən irəli gəlir. Hazırda ölkəmizdə yerli istehsalın xüsusi çəkisi hər ötən ilə nisbətdə yüksəlir ki, bu da iri heyvandarlıq komplekslərinin yaradılmasından irəli gəlir. İstehsal edilmiş ət məhsullarının istehlakına gəldikdə bu hal iri şəhərlərdə daha çox paya malikdir. Statistik məlumatlardan görünür ki, ət məhsullarının böyük əksəriyyəti məhz Bakı, Sumqayıt və Gəncə şəhərlərində istehlak edilir. İri istehsal subyektlərinin yaradılması bu iki məhsul üzrə də istehsalda əhəmiyyətli yüksəlmələrə gətirib çıxarmışdır. Qeyd edək ki, baza ili ilə müqayisədə hər nəfərə düşən istehsal kəmiyyəti artan məhsullardan təmizlənmiş taxılın həcmi 2022-ci ildə 39.9% artmışdır. Ərzaq təhlükəsizliyi baxımından olduqca əhəmiyyətli məhsul hesab edilən taxılın son illər istehsalının bu səviyyədə artması, iri taxılçılıq təsərrüfatlarının yaradılması ilə izah edilə bilər. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə yeni təsərrüfatların formalaşdırılması buna əyani misal kimi çəkmək olar. Baza ili ilə müqayisədə həcmi çox az dəyişən məhsul məhz kartof məhsulu hesab edilir. Hazırda hər həfərə düşən kartofun istehsal kəmiyyəti baza ili ilə müqayisədə cəmi bir kiloqram azalaraq, 106 kiloqram həcmində olmuşdur. Bu məhsul üzrə yerli özünütəminat imkanları yetərli səviyyədədir. Onun ixrac imkanları, əsasən, MDB ölkələrinə istiqamətlənmişdir. 2010-cu il ilə müqayisədə həcmi artan məhsullardan tərəvəz məhsullarını göstərmək olar ki, baza ili ilə müqayisədə 2022-ci ildə sözügedən məhsulların hər nəfərə düşən həcmi 36.1%, o cümlədən meyvə və giləmeyvə istehsalı isə 51.2% artmışdır. Təhlildən kənd təsərrüfatı məhsullarının hər nəfərə düşən həcminin artdığını aydın görmək olur. Kənd təsərrüfatı məhsullarının həcminin artmasında kifayət qədər yüksək rolu olan şəhər və ya iqtisadi rayonlar onun istehlakında o qədərdə yüksək paya malik olmurlar. Burada istehlakda xüsusi çəkisi yüksək olan şəhər və rayonlar əhali sayı baxımından cəmləşmənin yüksək olduğu regionlar hesab edilir [8, s.118]. İstehlakın artmasına təsir edən digər məqam, həmin regionlarda orta nominal əmək haqlarının səviyyəsi ilə müəyyən edilir. Ölkəmizdə regional istehlak fərqlərinə nəzər yetirərkənkən, ümumi kənd təsərrüfatı məhsullarının hər nəfərə düşən dəyərinin son illər necə dəyişdiyini görmək məqsədilə Qrafik 1-də müxtəlif illər üzrə kənd təsərrüfatı məhsullarının hər nəfərə düşən kəmiyyətinə yer verilmişdir. Qrafikin hazırlanmasında məqsəd, illər üzrə ölkəmizdə istehsal edilən kənd təsərrüfatı məhsullarının həmcində necə bir dəyişiklik olduğunu aydınlaşdırmağa xidmət edir.

Qrafikdə 1-də 2010-cu ildə ölkə üzrə istehsal edilən kənd təsərrüfatı məhsullarının hər nəfərə düşən dəyərinin cəmi 434 manat təşkil etdiyini görmək olar. Sonrakı on il ərzində yəni 2010-cu il ilə müqayisədə, 2020-ci ildə hər nəfərə düşən kənd təsərrüfatı məhsul istehsalının dəyərinin fiziki çəkidə 411 manat və ya 94.7% artdığını görmək olar. Diqqət çəkən məqam odur ki, hətta pandemiya dövründə belə ölkəmizdə kənd təsərrüfatı məhsullarının hər nəfərə düşən dəyərində artıma nail olunmuşdur. Hesabat ilində kənd təsərrüfatı məhsulları istehsalının hər nəfərə düşən dəyərinin min manatdan artıq olduğunu görürük. 2010-cu il ilə 2022-ci il ilə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalının hər nəfər düşən həcminin 2.5 dəfə artmış olduğunu görə bilərik [3]. Regional istehlak fərqlərinə və istehsal kəmiyyətinə nəzər etdikdə aydın olur ki, istehlakda xüsusi çəkisi ilə seçilən şəhərlər, kənd təsərrüfatı üzrə məhsul

istehsalında müəyyən dərəcədə zəif iştirak edirlər. Bu hal yüksək urbanizasiya şərtləri və relyef ilə əlaqələndirmək olar.




**Qrafik 1.** Kənd təsərrüfatı məhsulunun hər nəfərdə düşən kəmiyyəti, manat ilə
**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatlarına istinadən hazırlanılmışdır

**Nəticə.** Ümumi təhlildən belə nəticəyə gəlmək olar ki, ölkəmizdə yüksək sənayeləşmiş şəhərlərdə istehlakın yüksək olmasına baxmayaraq, digər regionlarda yetişdirilən məhsullar hesabına bu tələb qarşılanır. Belə şəhərlərdə istehsal edilmiş digər təyinatlı məhsullar isə həmin regionlara daşınır. Əslində bu xüsusiyyət regional ixtisaslaşmadan irəli gəlir. Mütləq üstünlüklər prinsipindən irəli gələn məqamlardan məsələyə yanaşsaq, bu hal heç də o qədər mənfi hal kimi qəbul edilmir. Hansı iqtisadi rayonda ixtisaslaşma səviyyəsi hansı sahəni əhatə edirsə, həmin regionlardan sözügedən məhsulların yetişdiriləcək qarşılıqlı şəkildə digər regionlara daşınması və orada istehlak edilməsi məqsədəuyğun hesab edilir.

## Ədəbiyyat

1. Ataşov B.X. (2017), Aqrar Sahədə Struktur və Səmərəlilik Problemləri (Nəzəriyyə və Praktika). Bakı, Kooperasiya nəşriyyatı, 536.
2. http://www.azstat.org/
3. http://www.economy.gov.az/
4. Hüseynov M.C., Salahov E.A. (2020), Kənd təsərrüfatının iqtisadi problemlərinin nəzəri aspektləri. İnnovasiyalı İqtisadiyyat və Menecment, No.1, 4-12.
5. Qafarov N.C. (2018), Aqrar istehlak bazarının iqtisadi mexanizminin formalaşması və inkişafının elmi-nəzəri əsasları. Elmi-Tədqiqat İnstitutu Elmi Əsərləri, No.2, 21-33.
6. Quliyev E.A. (2020), Qida Təhlükəsizliyi Problemləri və Strateji İstiqamətləri. Bakı, 167.
7. Quliyev Y. (2021), Azərbaycanın Sənayesi. Bakı, 389.
8. Şəkərəliyev A. (2010), Keçid İqtisadiyyatı və Dövlət. Bakı, 328.